DOI: doi.org/10.61226/12.2.2023/20252.13
UOT: 94
Aytac ŞADİYEVA
Bakı Dövlət Universiteti, müəllim
shinetomydarkness@gmail.com
https://orcid.org/0009-0007-5637-5740

İLHAM ƏLİYEV DİPLOMATİYASI VƏ ÇİN

Xülasə: Azərbaycan Respublikası beynəlxalq birliyin bütün üzvləri ilə balanslaşdırılmış xarici siyasi əlaqələrə malikdir. Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycan Respublikası bu regionda maraqlı olan bütün dövlətlərin diqqət mərkəzindədir. Bu baxımdan Şərqi Asiya nəhəngi hesab olunan Çin Xalq Respublikası (ÇXR) xüsusilə fərqlənir. Azərbaycan Respublikasının zəngin təbii sərvətləri bu regionda maraqlı olan Çinin daim Azərbaycanla yaxın siyasi əlaqələr saxlamasına gətirib çıxarmışdır. Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini qazandıqdan sonra Çin Xalq Respublikası ilə diplomatik-siyasi əlaqələr qurmuşdur. 1993-cü ildə Azərbaycanda Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu əlaqələr daha da dərinləşmişdir.

2003-cü ildə Azərbaycanda Prezident İlham Əliyevin hakimiyyətə gəlməsi ilə bu əlaqələr keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. Belə ki, XXI əsrdə Azərbaycan istər siyasi, istər iqtisadi, istərsə də hərbi baxımdan Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmişdir. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi davamçısı olan Prezident İlham Əliyevin diplomatik məharəti sayəsində mümkün olmuşdur. Azərbaycanla Çin arasında diplomatik, siyasi, iqtisadi, mədəni sahələrdə çoxtərəfli dərin əməkdaşlıq mövcuddur. Çin Ermənistanla Azərbaycan Respublikası arasında 1991-1994-cü illəri əhatə edən I Qarabağ və 2020-ci il 27 sentyabrdan 10 noyabra qədər davam etmiş II Qarabağ (və ya Vətən müharibəsi) müharibələrində hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyən bəyanatlar vermişdir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunduqdan sonra da Qarabağda bərpa-quruculuq işlərinə fəal dəstək vermişdir. Çin hələ 1998-ci ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən irəli sürülmüş Böyük İpək Yolunun bərpası ideyasının fəal dəstəkləyicisidir. XXI əsrdə bu kontekstdə Çin tərəfindən "Bir kəmər, bir yol" ideyası irəli sürülmüşdür. Bu məqalədə Azərbaycan Respublikası ilə Çin arasında 2003-2025-ci illərdə mövcud olmuş diplomatik-siyasi münasibətlər ətraflı təhlil ediləcəkdir.

Açar sözlər: Azərbaycan, İlham Əliyev, Çin, Qarabağ, diplomatiya

Aytaj SHADIYEVA

ILHAM ALIYEV DIPLOMACY AND CHINA

Abstract: The Republic of Azerbaijan has balanced foreign political relations with all members of the international community. The Republic of Azerbaijan, the leading state of the South Caucasus region, is in the center of attention of all states interested in this region. In this regard, the People's Republic of China (PRC), which is considered the giant of East Asia, stands out in particular. The rich natural resources of the Republic of Azerbaijan have led China, which is interested in this region, to always maintain close political relations with Azerbaijan. After gaining its independence in 1991, the Republic of Azerbaijan established diplomatic and political relations with the People's Republic of China. These relations deepened further after the coming to power of the National Leader Heydar Aliyev in Azerbaijan in 1993.

With the coming to power of President Ilham Aliyev in Azerbaijan in 2003, these relations entered a qualitatively new stage. Thus, in the 21st century, Azerbaijan has become the leading state of the South Caucasus in both political, economic and military terms. This was possible thanks to the diplomatic skill of President Ilham Aliyev, the political successor of the Great Leader Heydar Aliyev. There is a deep multilateral cooperation between Azerbaijan and China in the diplomatic, political, economic and cultural spheres. China has always made statements in support of

Azerbaijan's legitimate position in the First Karabakh War between Armenia and the Republic of Azerbaijan, which lasted from 1991 to 1994, and the Second Karabakh (or Patriotic War), which lasted from September 27 to November 10, 2020. After the restoration of Azerbaijan's territorial integrity, it also actively supported the restoration and reconstruction work in Karabakh. China has been an active supporter of the idea of restoring the Great Silk Road put forward by the national leader of the Azerbaijani people Heydar Aliyev in 1998. In this context, China put forward the idea of "One Belt, One Road" in the 21st century.This article will provide a detailed analysis of the diplomatic and political relations between the Republic of Azerbaijan and China in 2003-2025.
Keywords: Azerbaijan, Ilham Aliyev, China, Karabakh, diplomacy

Айтадж Шадиева

ДИПЛОМАТИЯ ИЛЬХАМА АЛИЕВА И КИТАЙ

Абстракт: Азербайджанская Республика имеет сбалансированные внешнеполитические отношения со всеми членами международного сообщества. Азербайджанская Республика, ведущее государство региона Южного Кавказа, находится в центре внимания всех государств, заинтересованных в этом регионе. В этом плане особенно выделяется Китайская Народная Республика (КНР), которая считается гигантом Восточной Азии. Богатые природные ресурсы Азербайджанской Республики привели к тому, что Китай, заинтересованный в этом регионе, всегда поддерживал тесные политические отношения с Азербайджаном. После обретения независимости в 1991 году Азербайджанская Республика установила дипломатические и политические отношения с Китайской Народной Республикой. Эти отношения еще больше углубились после прихода к власти в Азербайджане общенационального лидера Гейдара Алиева в 1993 году.

С приходом к власти в Азербайджане президента Ильхама Алиева в 2003 году эти отношения вступили в качественно новый этап. Таким образом, в XXI веке Азербайджан стал ведущим государством Южного Кавказа как в политическом, так и в экономическом и военном плане. Это стало возможным благодаря дипломатическому мастерству президента Ильхама Алиева, политического преемника великого лидера Гейдара Алиева. Между Азербайджаном и Китаем существует глубокое многостороннее сотрудничество в дипломатической, политической, экономической и культурной сферах. Китай всегда выступал с заявлениями в поддержку законной позиции Азербайджана в Первой Карабахской войне между Арменией и Азербайджанской Республикой, которая длилась с 1991 по 1994 год, и Второй Карабахской (или Отечественной войне), которая длилась с 27 сентября по 10 ноября 2020 года. После восстановления территориальной целостности Азербайджана он также активно поддерживал работы по восстановлению и реконструкции в Карабахе. Китай был активным сторонником идеи восстановления Великого Шелкового пути, выдвинутой общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым в 1998 году. В этом контексте Китай выдвинул идею «Одного пояса, одного пути» в XXI веке.В данной статье будет дан подробный анализ дипломатических и политических отношений между Азербайджанской Республикой и Китаем в 2003-2025 годах.
Ключевые слова: Азербайджан, Ильхам Алиев, Китай, Карабах, дипломатия

Giriş. Çin Xalq Respublikası (ÇXR) ilə Azərbaycan Respublikası arasında münasibətlər Sovet İttifaqının süqut etməsi və Azərbaycanın öz müstəqilliyini yenidən qazanması ilə 1991-ci ildən başlamışdır. Sovet İttifaqı dağıldıqdan və keçmiş İttifaq respublikaları müstəqillik əldə etdikdən sonra Çin Cənubi Qafqaz ölkələri ilə münasibətlərini yenidən qurmağa başladı. Bu meyl ənənəvi olaraq xalqların və dövlətlərin milli maraqlarının "ən ədalətli, ən obyektiv təmsilçisi", "yeni dünya nizamında təkqütblü ABŞ hegemonluğunun ən böyük opponenti" rolu ilə meydana çıxan Çinin onun üçün kifayət qədər cəlbedici region sayılacaq Avrasiya məkanındakı dövlətlərin etimadını qazanma siyasətinin tərkib hissəsi idi. Bu, onu göstərir ki, rəsmi Pekin Cənubi Qafqaz

və Xəzər regionunun zəngin neft və qaz yataqlarına, texnologiya, investisiya və satış bazarlarına, əslində, heç zaman biganə olmamışdır. SSRİ-nin süqutundan sonra isə Çin bu regiondakı maraqlarını reallaşdırmaqdan ötrü Rusiya, Qazaxıstan, Özbəkistan, Azərbaycan, Türkmənistan kimi dövlətlərlə münasibətlərini yaxşılaşdırmağa, özünün beynəlxalq hüquqlarını və milli təhlükəsizlik problemlərini qorumaq sahəsində bu dövlətlərə dəstək verməyə, yardım etməyə xüsusilə meyl göstərmişdir.

Çin-Azərbaycan diplomatik münasibətlərinin başlanması. Çin 27 dekabr 1991-ci ildə ölkəmizin müstəqilliyini tanıyıb. Azərbaycanla Çin arasında diplomatik əlaqələr 2 aprel 1992-ci ildə qurulmuşdur. Həmin ilin avqust ayında Çinin respublikamızda səfirliyi açılıb, 1993-cü il dekabr ayının 1-də isə ilk səfir təyin edilib [6]. Bu, o deməkdir ki, Çin Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk tanıyan Şərqi Asiya dövlətlərindən biridir. Təbiidir ki, iki ölkə arasındakı münasibətlər intensiv şəkildə 1993-cü ildən, Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərməsindən sonra başlamışdır [3, s 32].

Çinin I Qarabağ müharibəsində mövqeyi.Çin Xalq Respublikası Azərbaycan Respublikasının son 30 il ərzində əsas siyasi problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminə olan Azərbaycanpərəst mövqeyi ilə xüsusilə fərqlənmişdir. 1991-1994-cü illərdə baş vermiş I Qarabağ müharibəsində Azərbaycanı daim dəstəkləmişdir. ÇXR II Dünya müharibəsindən sonra dünyada müharibələrin qarşısının alınması məqsədilə yaradılan Birləşmiş Millətlər Təşkilatının (BMT) daimi üzvlərindən biridir. Məhz belə bir siyasi mövqeyə malik olan bir dövlətin Qarabağ probleminin həllinə çalışaraq, ölkəmizin mövqeyini müdafiə etməsi xarici siyasətimiz baxımından çox böyük uğur kimi dəyərləndirilir. ÇXR I Qarabağ müharibəsinə dair vermiş olduğu bütün bəyanatlarda BMT-nin Qarabağ münaqişəsinin həllinə dair vermiş olduğu 4 qətnamənin qeyd-şərtsiz yerinə yetirilməsini tələb etmişdit.

Çin-Azərbaycan münasibətlərində yeni mərhələ.2003-ci il 15 oktyabr tarixində keçirilən Prezident seçkiləri zamanı İlham Əliyev yüksək səs çoxluğu ilə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, xalqın öz Ulu Öndərinin davamçısına olan sonsuz etibar və sevgisinin sübutu idi. Məhz bu hadisə ilə Azərbaycan tarixində, xüsusilə də Azərbaycanın xarici siyasətində yeni mərhələ başlamış oldu. Azərbaycan tarixinə adını Qurucu Prezident, Müzəffər Ali Baş Komandan kimi qızıl hərflərlə yazdıran Prezident İlham Əliyev yürütmüş olduğu istər daxili, istərsə də xarici siyasətdə, atmış olduğu bütün addımlarda hər zaman Azərbaycan Respublikasının milli maraqlarını hər şeydən əziz tutmuş, onun adının hər zaman daha da zirvələrdə olmasını təmin etmişdir. Bu baxımdan, Şərqi Asiya regionunun lider dövlətlərindən olan Çin Xalq Respublikası ilə olan diplomatik-siyasi münasibətlər diqqəti xüsusilə cəlb edir. Çinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllinə olan marağı daha da fəallaşmağa başlayır. 2004-cü il 29 oktyabr tarixində BMT Baş Assambleyasının Plenar İclasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin Baş Assambleyanın gündəliyinə salınması ilə bağlı qərarla bağlı keçirilən səsvermədə isə Çin bitərəf mövqe tutmuşdur. 2006-cı ilin sentyabr ayında BMT Baş Assambleyasının 61-ci sessiyasının gündəliyinə "GUAM ərazisində uzanan münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" bəndinin salınması ilə bağlı Çin tərəfi ilə müvafiq danışıqlar aparılsa da, Çin qeyd olunan məsələdə bitərəf mövqe nümayiş etdirmişdir [11]. 2005-ci il 17 mart tarixində Çin Xalq Respublikasının sədri Xu Szintao Azərbaycan Prezidenti cənab İlham Əliyevlə danışıqlar aparmış və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi apardılar. Cənab Szintao bildirdi ki, Çin Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Tayvan məsələsində Çinin də belə bir problemlə üzləşdiyini vurğulayan ÇXR-in sədri dedi ki, biz münaqişələrin sülh yolu ilə, beynəlxalq hüquq normalarına, ən əsası isə, BMT-nin Nizamnaməsinə uyğun olaraq həll edilməsinə tərəfdarıq [8, s. 172]. Bu səfər zamanı aparılan danışıqlar nəticəsində Çinin Azərbaycana 15 milyon yuan məbləğində birdəfəlik təmənnasız yardım edəcəyinə dair razılıq əldə edilmiş, iki ölkə arasında bir sıra sənədlər imzalanmış, Azərbaycan-Çin Biznes Forumu keçirilmiş və bütün bu tədbirlərlə Prezident İlham Əliyevin balanslaşdırılmış xarici siyasəti nəticəsində Çin-Azərbaycan münasibətləri daha da möhkəmlənmişdir [2, s. 431].

2007-ci ildə Dağlıq Qarabağda qondarma "Prezident seçkiləri" ilə bağlı məsələyə münasibət bildirən Çin Xarici İşlər Nazirliyinin rəsmisi Liu Cyançao bildirmişdi ki, Çin Azərbaycanın müstəqilliyinə, suverenliyinə və onun ərazi bütövlüyünə hörmətlə yanaşır [5, s. 1]. Bu fakt özü-özlüyündə Çinin Azərbaycanın ərazi bütövlüyünü birmənalı olaraq dəstəklədiyini göstərir. Çin Xalq Respublikası özü də separatizmdən əziyyət çəkməkdədir. Çoxmilyonlu, çoxmillətli olan bu ölkənin ərazisində yaşayan müxtəlif millətlər zaman-zaman Çindən öz muxtariyyətlərini, hətta müstəqilliklərini tələb etməkdən çəkinməmişlər. XXI əsrdə Çinin əsas siyasi problemi ondan ayrılaraq öz müstəqilliyini elan etmiş Tayvan Respublikasıdır. Bundan əlavə, Çinin Sintszyan-Uyğur adlı vilayətində yaşayan uyğur türkləri də öz muxtariyyətlərini tələb etmək uğrunda mübarizə aparırlar. Belə bir şəraitdə Çin separatizmlə mübarizə aparmağa məcburdur. Azərbaycan Respublikası da öz növbəsində hər zaman Çin Xalq Respublikasının suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmış, Tayvanı Çinin ərazisi kimi tanımış "vahid Çin" prinsipindən çıxış etmişdir. Çinin Azərbaycanla bu qədər yaxın münasibətlər quraraq onu dəstəkləməsi digər tərəfdən də, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikasının dünya, o cümlədən Cənubi Qafqaz üçün olan əhəmiyyətindən irəli gəlir. Çin, enerji resursları ilə zəngin olan bu regionla münasibətləri dərinləşdirmək uğrunda mübarizə aparır. 2010-cu il aprelin 15-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovla görüşündə Ümumçin Xalq Nümayəndələri Yığıncağının Çin-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Ley Minqçiu Çinin Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəklədiyini, Qarabağ probleminin də məhz beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu bəyan etmişdir [4, s. 2].

Azərbaycanla Çin bir-birini beynəlxalq təşkilatlarda da dəstəkləyir. Çinin Azərbaycana dəstək verdiyi mühüm məqamlardan biri də Azərbaycanın 2 il-2011-ci ildən 2013-cü ilədək BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi olmuşdur [3, s 32]. Çinin bu prosesdə də Azərbaycana fəal dəstək verməsi ölkəmiz üçün həlledici məqam idi. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına ilk işgüzar səfəri 2014-cü ildə, rəsmi səfəri isə 2015-ci ildə olmuşdur. Bu baxımdan 2014-cü il mayın 19-da Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Şanxayda keçirilən IV Zirvə toplantısı qeyd olunmalıdır. Zirvə toplantısında Prezident İlham Əliyev ÇXR-in Sədri Si Cinpin ilə görüşmüşdür. Toplantıda Prezident İlham Əliyev bu toplantının artıq sülhün, sabitliyin, əməkdaşlığın təşviq olunması sahəsində nüfuzlu beynəlxalq quruma çevrildiyini, bu müşavirədə sədrliyin Çinə keçməsinin Asiyada sülh və təhlükəsizliyin daha da möhkəmlənməsinə səbəb olacağını bildirmişdir [2, s. 440]. Ölkə başçısı 2019-cu ilin aprelin 27-də Pekində baş tutan "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edib. Prezident İlham Əliyev 2015-ci ildə Çinə səfəri zamanı Çinin ilk imperatoru Tsin Şixuandinin dəfn olunduğu və dünyada "Torpaq ordusu" kimi tanınan məşhur və qədim tarixi abidəni ziyarət etmişdi. Bu qəbul zamanı ilk növbədə Azərbaycan Respublikasının Prezidenti üçün fəxri qarovulun təşkili, yolboyu Azərbaycan bayraqlarının şəhəri bəzəməsi, ali qonağın qarşılanması üçün birinci dərəcəli hazırlığın təşkili diqqətdən yayınmadı [9].

Çinin Vətən müharibəsində mövqeyi.Çin Xalq Respublikası Azərbaycanla olan siyasi əlaqələrinin 2020-ci ildə Azərbaycanla Ermənistan arasında baş verən II Qarabağ (yaxud Vətən müharibəsi) müharibəsi dövründə daha da intensivləşdiyini görmək olar. Bildiyimiz kimi, II Qarabağ, yaxud Vətən müharibəsi 2020-ci il 27 sentyabr tarixindən 10 noyabra qədər davam etmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin başlamasından sonra 28 sentyabrda Çin hökuməti Azərbaycan və Ermənistanı Dağlıq Qarabağda gərginliyi tezliklə azaltmağa və fikir ayrılıqlarını dialoq yolu ilə həll etməyə çağırmışdır. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Van Venbin brifinq zamanı "müvafiq tərəfllərin təmkinli davranacağına və gərginliyin daha da artmasından qaçmağa çalışacaqlarına və həmçinin tərəflərin fikir ayrılıqlarını dialoq yolu ilə həll edəcəklərinə ümid etdiklərini" bildirmişdir [10]. 2022-ci ildə Azərbaycan-Çin diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü qeyd edildi və bu əlamətdar hadisə iki ölkə arasında əlaqələrin daha da inkişafına imkan yaratdı [1 s. 2].

İlham Əliyev diplomatiyasının qələbəsi. Azərbaycanla Çin araasında siyasi əlaqələrin kulminasiya nöqtəsi 2025-ci il 22-24 aprel tarixlərində Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri hesab edilir. Onun Çin lideri Si Cinpinlə görüşü, iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat da daxil olmaqla əməkdaşlıq sənədlərinin imzalanması nəinki yerli, həm də dünya mediasının diqqət mərkəzində olmuşdur. "Qafqazinfo" AZƏRTAC-a istinadən məlumat verir ki, Çinin milli xəbər agentliyi Sinxua, Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən olan "Jenmin Jibao" və "Global Times" qəzetləri, Çin Media Qrupuna daxil olan Çin Mərkəzi Televiziyası (CCTV), Çin Beynəlxalq Radiosu, CGTN telekanalı, habelə nüfuzlu "China Daily" qəzeti, digər qəzet və xəbər saytları Prezident İlham Əliyevin Çinə səfəri barədə bir neçə dildə çoxsaylı materiallar yaymışdır [7]. Qardaş Türkiyədə, Rusiyada, İranda, Gürcüstanda və dünyanın başqa ölkələrində bu səfərin təfərrüatlarına geniş yer verilmişdir. TASS agentliyinin məqaləsində Çin liderinin "tarif və ticarət müharibələri bütün ölkələrin qanuni hüquq və maraqlarına zərər vurur, çoxtərəfli ticarət sistemini sarsıdır və dünya iqtisadi nizamını pozur" sözləri sitat gətirilir. Bildirilib ki, Si Cinpin BMT Nizamnaməsi və beynəlxalq nizamın qorunması üçün Çinin Azərbaycanla birgə işləməyə hazır olduğunu vurğulayıb. "Vestnik Kavkaza" nəşri dövlət başçılarının Pekində keçirilmiş görüşünün yekunu olaraq qəbul edilmiş Birgə Bəyanat barədə ətraflı məqalə dərc edib [7]. Çinin Azərbaycanda yeni təyin olunmuş səfiri Lu Mey bu görüş haqqında bildirmişdir:"Prezident İlham Əliyev Çinə artıq 7 dəfə səfər edib və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə 10-dan artıq görüş keçirilib. İki dövlət başçısı arasında yaxşı işgüzar əlaqələr qurulub və dərin şəxsi dostluq münasibətləri möhkəmləndirilib. Məhz dövlət başçılarının strateji rəhbərliyi altında Çin-Azərbaycan əlaqələri tarixdə ən yüksək səviyyəyə çatıb. Bununla da böyük və kiçik dövlətlər arasında bərabər münasibət və dostcasına əməkdaşlıq nümunəsi formalaşdırılıb" [11].

Elmi işin yeniliyi. Elmi işin yeniliyi ondan ibarətdir ki, burada mövzu təhlil edilərkən XXI əsrin ən müasir siyasi proseslərinin fonunda Azərbaycan-Çin diplomatik əlaqələrinə toxunulmuşdur.

Tətbiqi əhəmiyyəti. Qlobal və müasir dünyanın dəyişkən siyasi prosesləri baxımından bu mövzunun tətbiq olunmasının-daha dəqiq desək, müasir dövrdə Azərbaycan-Çin siyasi əlaqələrinin araşdırılıb, ondan alınan nəticələrin düzgün şəkildə tətbiq edilməsi çox vacibdir. Müasir dünya düzəni və orada baş verən siyasi hadisələrə bələd olmadan xarici siyasətdə uğurlu olmaq mümkünsüzdür. Bu baxımdan diplomatiyada "Prezident İlham Əliyev məktəbi" bu baxımdan dünya diplomatiya tarixi üçün misilsiz örnəkdir.

Nəticə. Yuxarıda qeyd edilən faktlara əsasən onu deyə bilərik ki, XXI əsrdə Azərbaycanla Çin arasında bu qədər dərin diplomatik əlaqələrin mövcud olması bir tərəfdən, hər iki ölkənin də tarixən separatizmin müxtəlif formalarına məruz qalması ilə bağlıdırsa, digər tərəfdən-ən başlıca olaraq Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin mükəmməl, balanslaşdırılmış müttəfiqlik əlaqələri ilə birbaşa bağlıdır.

Ədəbiyyat

1. Azərbaycan-Çin münasibətləri yeni tarixi mərhələlərin astanasındadır//Azərbaycan, - 2021, 3 iyun. – s.1.
2. Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi - Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016).Bakı:"Poliart" MMC, - 2017. - 904 s.
3. Böyük İpək Yolunda Azərbaycan-Çin əlaqələri:Tarix və müasirlik-"Böyük İpək Yolunda Azərbaycan-Çin əlaqələri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi seminarın materialları.Bakı 02-04 Oktyabr 2017, Bakı:"Avropa", - 2018. - 300 s.
4. Çin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır//Azərbaycan, - 2010, 16 aprel. – s.2.
5. Çinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi dəyişməzdir//Azərbaycan, 2015, 2 iyun. – s. 1.
6. Hüseynova M.Azərbaycanla Çin əlaqələri yeni mərhələyə-strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlib./ Bakı 21.01.2023.URL:https://adpu.edu.az/index.php/az/x%C9%99b%C9%99rl%C9%99r/610-

az%C9%99rbaycan-%C3%A7in-%C9%99laq%C9%99l%C9%99ri-yeni-m%C9%99rh%C9%99l%C9%99y%C9%99-strateji-t%C9%99r%C9%99fda%C5%9Fl%C4%B1q-s%C9%99viyy%C9%99sin%C9%99-q%C9%99d%C9%99r-y%C3%BCks%C9%99lib
7. İlham Əliyevin Çin səfəri dünya mediasında./22 Aprel 2025.URL:https://qafqazinfo.az/news/detail/ilham-eliyevin-cin-seferi-dunya-mediasinda-fotolar-468532
8. İlham Əliyev:İnkişaf məqsədimizdir, səkkizinci kitab (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar),Yanvar 2005 - mart 2005, Bakı:“Azərnəşr”, - 2011. - 408 s.
9. Məhərrəmova K.İlham Əliyevin Çin səfəri:Dövlət Protokolunun zirvəsi və tarixi mərasimlər. /25 Aprel 2025.URL:https://oxu.az/siyaset/ilham-eliyevin-cin-seferi-dovlet-protokolunun-zirvesi-ve-tarixi-merasimler
10. Səfir:Dövlət rəhbərlərinin diplomatiyası Çin-Azərbaycan münasibətlərinin inkişafında kompas və yüksələn ulduzdur./22 Aprel 2025.URL:https://azertag.az/xeber/sefir_dovlet_rehberlerinin_diplomatiyasi_chin_azerbaycan_munasibetlerinin_inkisafinda_kompas_ve_yukselen_ulduzdur_video-3528619
11. Şərifli Y.Çin Xalq Respublikası və Qarabağ münaqişəsi./28 Oktyabr 2020.URL:https://qafsam.org/2020/10/28/cin-xalq-respublikasi-v%C9%99-qarabag-munaqis%C9%99si/

Məqalənin redaksiyaya daxilolma tarixi: 18.06.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.06.2025
Məqalənin çapa qəbul olunma tarixi: 03.07. 2025